

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 yanvar 2024-cü il №4 (2815) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşılan fotonu təqdim edib.

## Birinci vitse-prezident Mehriban Əliyeva 20 Yanvar faciəsinin ildönümü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "20 Yanvar 1990. Şəhidlərimizi qürur və ehtiramla anırıq!".

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər






Qanlı 20 Yanvar faciəsindən 34 il keçir. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 34-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad edib.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

* * *

Otuz dörd il bundan əvvəl 20 Yanvar günü Azərbaycan xalqının tarixinin həm faciəli, kədərli səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev vaxtilə 20 Yanvar hadisələrini belə səciyyələndiririb. Ulu Öndər böyük uzaqgörənliklə deyirdi ki, biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərindən dərk edəcəyik. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olub.

Həmin faciəli günlərdən artıq 34 il keçir. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, 20 Yanvarın tariximizdə tutduğu yeri bu gün daha aydın görürük. Həmin gün Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar. Xalqın birliyi və milli ləyaqət hissi top-tüfəngə qalib gəldi və bu, 20 Yanvarı səciyyələndirən ən mühüm məqamlardan biridir.

Qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi Ümummilli Lider Heydər Əliyevin sayəsində həllini tapıb. Faciənin ertəsi günü - yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirib, 20 Yanvar faciəsinə siyasi qiymət verib, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin xəyanəti üzündən baş vermiş siyasi səhv olduğunu bəyan edib. O, faciə ilə əlaqədar xalqımıza başsağlığı verib və mətbuat konfransı keçirib Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırıb. Bu tarixi çıxışın mətni Kremlin kəskin informasiya blokadası siyasətinə baxmayaraq, bütün dünyada, o cümlədən Azərbaycanda yayıldı və geniş əks-səda doğurub. Azərbaycan xalqının qəlbində ümid çırağı yanıb. 1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən qərar qəbul edilib. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Ulu Öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşüb. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ölkə rəhbərliyindən tələb edilib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmayıb.

Yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlanıb. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Ulu Öndər Heydər Əliyev bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ümummilli Lider Heydər Əliyevin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edilib. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olunub və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirilib. Şəhidlərin xatirəsi əbədiləşdirilib, Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə-kompleksi ucaldılıb, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edilib, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi gücləndirilib.

Ölkəmizdə 20 Yanvar əlillərinə və şəhid ailələrinə daim diqqət və qayğı göstərilir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb, 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilib.

Bu gün əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki 2020-ci ildə qalib Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoyub, torpaqlarımızı erməni işğalından azad edərək bölgədə yeni reallıq yaradıb. 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam bərpa olunub. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli Bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri davam etdirilir. Artıq keçmiş məcburi köçkünlər işğaldan azad olunmuş ərazilərə, doğma torpaqlarına qayıdırlar. İndi bu torpaqlarımızda həyat yenidən canlanmağa başlayır.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması həm də 20 Yanvar şəhidlərinin, ümumilikdə torpaqlarımızın işğaldan azad edilməsi yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin qanının yerdə qalmadığının sübutudur. Odur ki, xalqımız 20 Yanvar faciəsinin 34-cü ildönümünü xüsusi qürur hissi ilə qeyd edir.

# Müdafiə Nazirliyinin rəhbər heyəti Şəhidlər xiyabanını ziyarət edib







20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Şəhidlər xiyabanını ziyarət ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Vətənimizin azadlığı, müstəqilliyi uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi hörmət və ehtiramla yad edilib, məzarları üzərinə gül dəstələri qoyulub.

# Azərbaycan Respublikasının müdafiə naziri slovakiyalı həmkarı ilə görüşüb





Yanvarın 18-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri cənab Robert Kalinakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə slovakiyalı qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək xatirələrinə ehtiram nümayiş etdiriblər. "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi təşkil edilib. Müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Nümunəvi hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.





General-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədən sonra azad edilmiş ərazilərdə görülən minatəmizləmə və bərpa-quruculuq işləri ilə bağlı nümayəndə heyətini məlumatlandırıb.

Azərbaycanla Slovakiya arasında hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən cənab R.Kalinak ölkəmizin suverenliyi və ərazi bütövlüyünün bərpası ilə əlaqədar azərbaycanlı həmkarını təbrik edib. Regionun ən güclü ordularından biri olan Azərbaycan Ordusu ilə qarşılıqlı təcrübə mübadiləsinin inkişaf etdirilməsi, eləcə də müasir döyüş əməliyyatlarının öyrənilməsinin vacibliyini bildirib. Bu cür səfərlərin xüsusi əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

Sonda Azərbaycan ilə Slovakiya arasında hərbi sahədə maraq doğuran bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.



## Azərbaycan ilə İran arasında hərbi təhsil sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti İran Ali Milli Müdafiə Universitetində olub. Qonaqları salamlayan general-mayor İ.Ə.Müqəddəm onları İranda görməkdən məmnun olduğunu bildirib. Nümayəndə heyəti İran Ali Milli Müdafiə Universitetinin elm, tədris və kitabxana bazası ilə tanış olub, onlara təhsil müəssisəsinin fəaliyyəti haqqında brifinq təqdim edilib.

General-mayor Arif Həsənov dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, Milli Müdafiə Universitetinin yaranma tarixi, onun nəzdindəki hərbi təhsil müəssisələrinin əsas fəaliyyət istiqamətləri, strukturu ilə bağlı məlumat verib.

Görüşdə elm və təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi baxımından qarşılıqlı səfərlərin və bu cür görüşlərin zəruriliyi xüsusi vurğulanıb.

Sonra Azərbaycan nümayəndə heyəti İran Müdafiə Nazirliyinin istehsal etdiyi hərbi məhsulların nümayiş olunduğu sərgi ilə tanış olub.

Səfər çərçivəsində, həmçinin İran Ordusunun Komanda və Qərargah Universiteti, İran Silahlı Qüvvələri Baş Qərargahının Beynəlxalq Əməkdaşlıq İdarəsi də ziyarət edilib.

Görüşlərdə ölkələrimiz arasında hərbi təhsil sahəsində maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Hərbi Prokurorluqda geniş kollegiya iclası keçirilib

*Yanvarın 18-də Hərbi Prokurorluqda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində 2023-cü il ərzində görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.*





Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluqdan məlumat verilib.

Bildirilib ki, əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, dahi insanın parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Kollegiya iclası başlamamışdan əvvəl iştirakçılar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və canlarını Vətən uğrunda fəda etmiş bütün şəhidlərin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla anıb, döyüşlərdə yaralananlara şəfa diləyiblər.

Baş prokuror Kamran Əliyev çıxış edərək nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin müdrik siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə davam etdirən dövlətimizin başçısının rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə bütün sahələrdə qazanılmış böyük uğurlardan, o cümlədən tarixi torpaqlarımızın işğaldan azad edilməsindən, həmin ərazilərdə həyata keçirilən abadlıq-quruculuq işlərindən bəhs edib. Kamran Əliyev milləti və dövləti qarşısındakı misilsiz xidmətləri ilə bütün liderlərdən seçilən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqın sonsuz sevgisini qazandığını xüsusi vurğulayıb. Baş prokuror Kamran Əliyev bildirib ki, bu uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm rolu olub.

Hesabat məruzəsi ilə çıxış edən Baş prokurorun müavini-hərbi prokuror general-leytenant Xanlar Vəliyev əvvəlcə çoxsaylı ciddi qlobal problemlərə, postpandemiya mərhələsi və müharibədən sonrakı dövr olmasına baxmayaraq, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin Azərbaycanın sürətli inkişaf strategiyasını müasir müstəvidə uğurla reallaşdıran, xalqına xidmətdə digər liderlərə örnək olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mükəmməl siyasəti sayəsində 2023-cü il ərzində də ölkəmizin qüdrətlənməsi və əhalinin rifahının yaxşılaşdırılması prosesinin davamlılığının təmin edilməsindən, eləcə də ötən il ölkəmizin əldə etdiyi digər uğurlardan danışıb. O, sentyabrda keçirilən uğurlu lokal antiterror tədbirlərini, dövlət rəhbərinin Xankəndi, Ağdərə, Xocavənd və Xocalıda, Sərsəng su anbarının ərazisində Azərbaycanın Dövlət Bayrağını ucaltmasını xüsusi vurğulayıb. Hərbi prokuror qeyd edib ki, Vətənin çiçəklənməsinə birinci xanım Mehriban Əliyevanın zəngin fəaliyyəti xeyli mütərəqqi töhfələr verib. General-leytenant Xanlar Vəliyev, həmçinin 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsini vurğulayaraq bildirib ki, bununla əlaqədar Hərbi Prokurorluq orqanları tərəfindən böyük qürur və fərəh hissləri ilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Təhlükəsizliyi Xidmətinin yüksək rütbəli hərbi qulluqçuları, eləcə də müxtəlif dövlət qurumlarının, şəhər və rayonların rəhbər vəzifəli şəxsləri ilə birlikdə 26 tədbir keçirilib. Qeyd olunub ki, əvvəlki illərdə olduğu kimi, ötən ildə də döyüşlərdə yaralananlara və şəhid ailələrinə xüsusi diqqət göstərilib, istər Hərbi Prokurorluqda, istərsə də yerlərdə onlarla görüşlər keçirilərək qayğıları ilə maraqlanılıb.



Vurğulanıb ki, cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilmiş, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin ümumilikdə 99,8 faizi, o cümlədən bəzi qəbildən olan cinayətlərin 100 faizi açılıb.

Bildirilib ki, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, hərbi intizamın və qanunçuluğun möhkəmləndirilməsi, eləcə də cinayətkarlığa qarşı mübarizə istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin də böyük əhəmiyyəti olub. Belə ki, hər il olduğu kimi, 2023-cü ildə də aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış müvafiq tədbirlər planları əsasında mütəmadi olaraq hərbi qulluqçularla görüşlər təşkil olunub, onların qayğı və problemləri ilə maraqlanılıb, həmçinin fərdi qəbullar keçirilib. Eyni zamanda, bayramlarda və digər əlamətdar günlərdə hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçuların iştirakı ilə tədbirlər, o cümlədən bayram mərasimləri keçirilib və xidmətdə fərqlənənlərə hədiyyələr təqdim olunub. Bütün bunların nəticəsində də hesabat dövründə qeydə alınmış cinayətlər ötən illə müqayisədə ümumilikdə 6,1 faiz, hərbi xidmət əleyhinə olan cinayətlər isə 24,2 faiz azalıb.

Eyni zamanda, 2022-ci illə müqayisədə 2023-cü ildə qeydə alınmış qəsdən adam öldürmə cinayətləri 40 faiz, özünü öldürmə həddinə çatdırma cinayətləri 9,1 faiz, tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətləri 12,9 faiz, əmri icra etməmə cinayətləri 66,7 faiz, hərbi xidmətdən yayınma cinayətləri 33,7 faiz, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 37,9 faiz, maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 26,1 faiz və xuliqanlıq cinayətləri 16,7 faiz azalıb.

Kollegiya iclasında, hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunmaqla, onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi, işin effektivliyinin daim artırılması tələb edilib.

Sonda general-leytenant Xanlar Vəliyev deyib ki, Hərbi Prokurorluğun kollektivi Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətinin səmərəliliyini daim artıracaq, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, cinayətkarlığa və digər qanun pozuntularına qarşı mübarizədə üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcək.







Sonra məruzə ətrafında hərbi prokurorun müavinləri - Şəfahət İmranov, Fuad Məmmədov, Mehdi Hüseynzadə, Füzuli hərbi prokuroru Elçin Hacıyev və Kəlbəcər hərbi prokuroru Mahir Bayramov hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

Kollegiya iclasına yekun vuran Baş prokuror Kamran Əliyev, prokurorluq orqanları əməkdaşlarının Ulu Öndər Heydər Əliyevin millətimizin və dövlətimizin maraqlarına xidmət edən müdrik siyasətinin Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edəcəklərini, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması, qanunun aliliyinin təmin edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklərini, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutacaqlarını bildirib.

# Azərbaycan Ordusunda 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, 20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar Azərbaycan Ordusunda şəxsi heyətin maarifləndirilməsi və vətənpərvərlik nümunələrinin təbliğ edilməsi istiqamətində silsilə tədbirlər keçirilib.*



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, faciənin 34-cü ildönümü ilə əlaqədar Azərbaycan Ordusunun bütün qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, hərbi birlik və birləşmələr, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirlər çərçivəsində hərbi qulluqçular Şəhidlər xiyabanlarını ziyarət edib, hərbi hissə, müəssisə və təşkilatlarda 20 Yanvar faciəsinə həsr olunmuş sənədli filmlər, videoçarxlar və kitab sərgiləri nümayiş etdirilib.

Mərasimlərdə xalqımıza qarşı məqsədli şəkildə törədilmiş 20 Yanvar faciəsinin tarixi əhəmiyyətindən danışılıb, Azərbaycan xalqının Ümummilli Lideri Heydəri Əliyev və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin baş vermiş hadisələr barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində həyata keçirdiyi siyasətin uğurları barədə ətraflı məlumat verilib.




Çıxış edənlər həmin tarixi dövrdə milli-azadlıq uğrunda mübarizəyə qalxmış oğul və qızlarımızın fədakarlığı, xalqımızın qəhrəmanlığı barədə xatirələrini tədbir iştirakçıları ilə bölüşüblər.

* * *

Xalqımız həmişə azadlıq, müstəqillik mübarizəsi aparıb. Baş verən siyasi hadisələr, keşməkeşlər xalqımızı haqq yolundan döndərə bilməyib. Xalqımızın mübarizə əzmini daha da artırıb. 1990-cı ilin yanvarın 19-dan 20-ə keçən gecə baş verən faciə təkcə Azərbaycan xalqına qarşı törədilmiş cinayət deyil, bəşəriyyətə, humanizmə qarşı törədilmiş cinayətdir. O qanlı günlərdən 34 il keçsə də, xalqımız Qanlı Yanvarda baş verənləri - imperiyanın törətdiklərini unutmur, Vətənimizin azadlığı, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi həmişə hörmət və ehtiramla yad olunur.



20 Yanvar faciəsinin 34-cü ildönümü münasibətilə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi və Samux rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonda fəaliyyət göstərən təhsil müəssisələrində silsilə tədbirlər keçirildi. Qovlar Sarı, Sərkar kəndlərində, İnstitut qəsəbəsində və başqa məktəblərdə təşkil olunan anım tədbirlərində Mərkəzin əməkdaşları Esmira Məmmədova, Nəzakət Məmmədova və müəllimlər çıxış edərək xalqımıza qarşı həyata keçirilən bu faciədən danışdılar. Bu faciənin başlıca səbəbinin azadlıq, müstəqillik mübarizi olan xalqın mübarizə əzmini qırmaq, haqq yolundan döndərmək olduğunu bildirdilər. Xalqımız azadlıq və müstəqillik uğrunda mübarizəsini qətiyyətlə davam etdirdi.

Dünya gördü ki, Azərbaycan xalqı dövlətçilik mücahididir. Keçmiş imperiyanın törətdiyi ağır cinayət xalqımızın milli azadlıq hərəkatını boğmağı bacarmadı. O qanlı faciədə 147 nəfər qətlə yetirildi, yüzlərlə insan xəsarət aldı, itkin düşdü.

Çıxış edənlər bildirdilər ki, xalqımıza qarşı törədilən böyük haqsızlığa qarşı Ulu Öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək öz etirazını bildirdi, bəyanatla çıxış etdi. Həmin dövrdə imperiya qüvvələri faciəni ört-basdır etmək üçün xalqın haqq səsini boğmağa çalışırdılar.

Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət və əsl cinayətkarlar haqqında ətraflı məlumatlar verildi. Şəhidlər xiyabanında ucalan "Əbədi Məşəl" abidəsi şəhidlərin ölməz xatirəsinə ehtiram kimi Ulu Öndər tərəfindən yaradıldı.

Vətənimizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların ailə üzvlərinə dövlət rəhbərliyi tərəfindən yüksək diqqət və qayğı göstərilir. Hər il 20 Yanvar faciəsini xalqımız hüzn və şərəf günü kimi böyük izdihamla qeyd edir.

Sonda tədbir iştirakçılarına 20 Yanvar faciəsindən bəhs edən film nümayiş etdirildi.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**




Azərbaycan Hərb Tarixi Muzeyində "20 Yanvar qəhrəmanlıq və iftixar tariximiz" adlı tədbir keçirildi. Tədbirdə hərbi qulluqçular, kursantlar, müharibə veteranları və muzeyin əməkdaşları iştirak edirdilər.

20 Yanvar faciəsinə həsr olunmuş qısametrajlı sənədli film nümayiş olunduqdan sonra tədbir açıq elan olundu.

Tədbirdə qeyd olundu ki, 20 Yanvar Ümumxalq Hüzn Günündən 34 il keçir. 70 il sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi gün şərəfli tarixdir. Həmin gün xalqımız əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda canından belə keçməyə hazır olduğunu dünyaya nümayiş etdirdi.

Azərbaycan Hərb Tarixi Muzeyi rəisinin Arxiv, Fond və Ekspozisiya üzrə müavini Tələt Qarayev çıxış edərək bildirdi ki, 20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, həmçinin xalqımızın istiqlal yolunda atdığı, suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. "Azərbaycanın ərazi bütövlüyünə qarşı erməni təhdidlərindən sonra xalqımız müstəqilliyini bərpa etməklə öz dövlətinə sahib çıxmağa başladı.

SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19:27-də Azərbaycan Televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. M.Qorbaçovun fərmanı ilə Bakı şəhərində fövqəladə vəziyyət elan olundu. Dinc insanların xüsusi amansızlıqla qətlə yetirildiyi, itkin düşdüyü, yüzlərlə soydaşımızın isə yaralandığı 19-dan 20-nə keçən gecə Sovet imperiyasının xalqımıza qarşı törətdiyi növbəti faciələrdən olub".

Natiq qeyd etdi ki, Ulu Öndər Heydər Əliyev Moskvada Azərbaycan nümayəndəliyinə gələrək xalqımıza qarşı törədilən faciəyə görə sovet rəhbərliyinə öz etirazını bildirib. Xalqımız 20 Yanvar hadisələrinin 34-cü ildönümünü ürək ağrısı ilə, igid övladlarının fədakarlığını isə məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanının xalqımız üçün müqəddəs and yerinə, milli iradəmizin şanlı-şərəfli salnaməsinə çevrildiyini qeyd etdi.

2020-ci ilin payızının ilk günlərində başlayan, cəmi 44 gün davam edən müharibə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında erməni silahlı birləşmələri tərəfindən işğal edilən əraziləri azad etdi. Bu tarixi qələbə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş soydaşlarımızın apardığı haqq mübarizəsinin hədər getmədiyini göstərdi.

Tədbirdə çıxış edən muzeyin əməkdaşı tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov bildirdi ki, 20 Yanvar həm də xalqımızın qəhrəmanlıq salnaməsidir. 1989-cu ildə Azərbaycan xalqı dünyada ilin ən mübariz xalqı seçilib. Həmin illərdə sovet rəhbərliyinin yürütdüyü yarıtmaz siyasət Azərbaycan xalqına və ərazisinə qarşı yönəlmişdir. Erməni separatizmi baş qaldırdığı bir dönəmdə sovet rəhbərliyi bunun qarşısını almaq əvəzinə, öz haqqının müdafiəsinə qalxan günahsız xalqın üzərinə qoşun yeritmək mövqeyini tutdu. Gürcüstan, Moldova və başqa respublikalarda da xalqlar sovet imperiyasının ədalətsizliyi ilə qarşılaşırdılar. Bu cür narazılıqların sonda imperiyanın dağılmasına gətirib çıxarıldığını bildirdi.



Tədbirdə çıxış edənlər 20 Yanvar faciəsinin ürək ağrısı ilə qeyd edildiyini bildirsələr də, sonda xalqımızı tarixi, əbədi müstəqilliyə aparan şanlı yol olduğunu qeyd etdilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# 20 Yanvar qəhrəmanlıq və şərəf tariximizdir

1990-cı il yanvarın 20-si…

Bu tarix hər bir azərbaycanlının ömürlük yaddaşına həkk olunub. Çünki 34 il öncə milli taleyimizdə qorxunc, lakin şanlı günlər yaşandı. Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olan 1990-cı il 20 Yanvar hadisələri həm də millətin azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Bu amansız və insanlığa sığmayan hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərinə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Yalnız Sovet imperiyasının mülki insanların qanını axıtmağına, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etməyinə baxmayaraq, istəyinə nail ola bilmədi. Bununla belə onlar milli qürurumuzu və azadlıq əzmimizi qıra bilmədilər.

Bu hərəkəti ilə Sovet imperiyası iç üzünü bariz bir şəkildə ortaya çıxartdı. Əslində, imperiyanın Bakıda bu qanlı hadisəni törətməklə ittifaqa üzv olan digər respublikalara göz dağı vermək planı, imperiyanı zor gücünə mühafizə etmək təşəbbüsü də boşa çıxmış oldu. Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi görünməmiş vəhşiliklərlə müşayiət edildi. Kommunist diktaturası Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni hətta o zamankı Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Həmçinin həmin vaxt Azərbaycan bədnam qonşumuz Ermənistanın da təcavüzünə məruz qalmışdı. Belə bir şəraitdə Sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdilər.

1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Qorbaçovun fərmanı qüvvəyə minənədək artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı.



Tanklar, zirehli transportyorlar Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn "təcili yardım" maşınlarını və tibb işçilərini də atəşə tuturdular. SSRİ Müdafiə Nazirliyi, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda 147 mülki vətəndaş öldürülmüş, yüzlərlə adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi. Qara Yanvarın indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb. Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu təsnifatı almayıb.

Hadisədən dərhal sonra Azərbaycanın o vaxtkı rəhbərliyi nəinki 20 Yanvarın gerçək miqyas və mahiyyətini dünya birliyinin diqqətinə çatdırmadı. Verilən hər bəyanatda, atılan hər addımda Moskvaya boylanma, Mərkəzin əhvalının göz önünə alınması aşkar idi. Digər tərəfdən, 20 Yanvar lap əvvəldən siyasi mübahisə predmeti olub, "Faciənin günahkarları kimdir?" sualına cavab daha çox Azərbaycanın daxilində axtarılıb, nəinki gerçək ünvanlarda. Məhz 20 yanvara daxili-siyasi konyukturdan yanaşma dünyanın gözündə bu hadisənin mahiyyətini kiçiltdi. Əksər ölkələr 20 Yanvarı Azərbaycandakı daxili siyasi mübarizənin, hakimiyyət davasının nəticəsi kimi dəyərləndirdi. Beynəlxalq birlik 1956-cı ilin Budapeşt, 1968-ci ilin Praqa, o cümlədən 1989-cu ilin Tbilisi, 1991-ci ilin Riqa və Vilnüs hadisələrinə müvafiq hüquqi qiymət verdiyi halda, 1990-cı ilin Yanvar hadisələri SSRİ-nin hansısa ekstremist qüvvələri zərərsizləşdirmək və guya dinc əhalini qırğınlardan, xaosdan qorumaq üçün atdığı məcburi addım kimi tanındı. O vaxtkı Azərbaycan rəhbərliyinin laqeyd və qorxaq siyasəti üzündən 20 Yanvar nəinki beynəlxalq, hətta ittifaq müstəvisində də layiq olduğu hüquqi-siyasi təsnifatı almamışdı.

SSRİ-nin digər bölgələrində, o cümlədən Tbilisidə və Baltikyanı respublikalarda baş vermiş hadisələr sovet rəhbərliyi, xalq deputatları səviyyəsində müzakirə edilsə də, 20 Yanvar hadisələri bilərəkdən təhrif edilərək yanlış yozuma və unutqanlığa məhkum edilmişdi. Bircə faktı vurğulamaq yetər ki, SSRİ prezidenti M.Qorbaçov Azərbaycanda həyata keçirilmiş əməliyyata yalnız bir dəfə, 1991-ci ildə, 20 Yanvarın ildönümündə Azərbaycan xalqına başsağlığı verməklə münasibət bildirmişdi.

XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar cinayəti də var. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi təhqiqatlarda da təsdiqlənir. Onları bir araya gətirib dünyanın diqqətinə çıxarmaqla, gec də olsa, beynəlxalq müstəvidə 20 Yanvar barəsində gərəkən rəyin formalaşmasına nail olmalıyıq. 20 Yanvar Azərbaycan xalqının tarixində təkcə qara çərçivədə anılası gün olmamalıdır. Biz bu günün gerçək önəmini onun hüzn və şərəfi ilə birgə yaşamalıyıq. Ən önəmlisi isə bu tarixi, 20 Yanvar faciəsinin Azərbaycan xalqına qarşı məqsədli qırğın, soyqırımı kampaniyasının bir halqası olduğunu dünyaya tanıtdırmağı bacarmalıyıq. Ona görə yox ki, dünya da bizim hüznə şərik olub matəm tutsun. Ona görə ki, dünya Azərbaycanın və azərbaycanlıların tarixini olduğu kimi dərk etsin. Bu aksiyanın Azərbaycan üçün, onun beynəlxalq imici üçün heç də formal olmayan əhəmiyyəti var.

Faciədən dərhal sonra - 1990-cı il yanvarın 21-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirib və həmin əməliyyata rəhbərlik edənləri ifşa edib: "...Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya zidd, humanizmə və ... hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin də yaranmazdı ...Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır!". Çıxışlarından birində Ulu Öndər 20 Yanvar faciəsi barədə demişdir: "Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovet İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib Sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib. Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olub ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edib. Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir".

20 Yanvar hadisələrinə ilk hüquqi qiymətin verilməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsinin nəticəsidir. Əbədiyaşar Komandanın təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. Ulu Öndər Heydər Əliyev dövrün mürəkkəbliyinə və görüləsi işlərin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu. Məhz Azərbaycan xalqının Ümummilli Liderinin təşəbbüsü və göstərişləri ilə 1994-cü il martın 29-da parlament "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Beləliklə də, 20 Yanvar faciəsi məhz Ulu Öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz siyasi-hüquqi qiymətini aldı.

Azərbaycan dövləti və xalqı öz şəhidlərini unutmur. 20 Yanvar hadisələri nəticəsində şəhid olmuş ailələrin sosial vəziyyəti daim dövlətin diqqət mərkəzindədir. 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çoxlu sayda şəhid verdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, "Azərbaycan bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur". Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə "20 Yanvar Şəhidi" fəxri adı təsis edilib. Prezident İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün etibarlı sosial müdafiə sistemi formalaşıb.

Azərbaycan xalqı və dövləti 20 Yanvar şəhidlərinin xatirəsini daim uca tutur. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur.

20 Yanvar şəhidlərinin ailələrinə qayğı daim dövlətin diqqət mərkəzindədir. Dövlət başçısı 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün də mühüm işlər görmüşdür. Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə aylıq təqaüd verilir. Təqaüdün məbləği 2021-ci il yanvarın 1-dən 300 manatdan 500 manatadək artırıldı. Məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə Şəhidlər xiyabanında təmir və yenidənqurma işləri aparılıb. Bundan başqa, Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə memorial abidə kompleksi inşa olunub.

Bu gün Ulu Öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu şaddır. Çünki Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qalib ordumuz xalqımızın 30 ilə yaxın həsrətinə son qoydu. Torpaqlarımızı erməni işğalından azad edilərək bölgədə yeni reallıq yarandı. 44 günlük Vətən müharibəsində rəşadətli ordumuzun qazandığı Zəfər şəhidlərimizin ruhuna ehtiram olmaqla yanaşı, həm də xalqımızın bir daha faciələrlə, soyqırımlarla sınağa çəkilməcəyinə təminat verir. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən hərbi qulluqçuların, müharibə veteranlarının və şəhid ailələrinin sosial-məişət sahəsində ardıcıl tədbirlərin görülməsi gənclərimizin vətənpərvər ruhda tərbiyəsində mühüm rol oynayır.

**Hazırladı:**
**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Hərbi mövzuda xəbər hazırlayan, yazılar yazan jurnalistlər və ekspertlərlə görüş keçirilib




Yanvarın 19-da Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyinin kommunikasiyaya cavabdeh şəxsləri ilə hərbi mövzuda xəbər hazırlayan, yazılar yazan jurnalistlər və ekspertlər arasında görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Müdafiə Nazirliyinin, Medianın İnkişafı Agentliyinin, Baş Prokurorluğun və Respublika Hərbi Prokurorluğunun mətbuat xidmətinin nümayəndələri, jurnalistlər, hərbi ekspertlər, eləcə də digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, eləcə də milli azadlıq uğrunda mübarizəyə qalxmış 20 Yanvar şəhidlərinin, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş həmvətənlilərimizin, həmçinin şəhid jurnalistlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin nümayəndələri tərəfindən müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Kommunikasiya Strategiyasının hesabatı təqdim olunub və Azərbaycan Ordusunda 2023-cü ildə icra edilən döyüş hazırlığı üzrə tədbirlərin icmalından ibarət videoçarx nümayiş etdirilib.

Bildirilib ki, Azərbaycan Ordusunda 2023-cü il ərzində - 143 taktiki-xüsusi, 261 taktiki, 8 taktiki uçuş, 7 gəmi-döyüş, 4 komanda-qərargah səfərbərlik təlimi, komando başlanğıc və snayper hazırlığı kursları keçirilib, eləcə də hərbi qulluqçularımız Azərbaycanda və digər ölkələrdə keçirilən 21 beynəlxalq təlimdə iştirak ediblər.

Hesabatda qeyd olunub ki, tədbirlərin işıqlandırılması və nazirliyin kommunikasiya strategiyasının icrası ilə bağlı Müdafiə Nazirliyi tərəfindən 2023-cü il ərzində ümumilikdə 955 məlumat, 4224 foto və 403 videomaterial rəsmi internet səhifəsində və sosial media hesablarında paylaşılıb. Məlumatlardan 854-ü rus və ingilis dillərinə tərcümə edilib.

İl ərzində media subyektləri tərəfindən Azərbaycan Ordusunun maddi-texniki bazasından istifadə edilməklə çəkilişlərin aparılması məqsədilə ünvanlanmış 186 məktub icra olunub.

Müraciətlərə əsasən təşkil olunmuş çəkilişlərdə 11 dövlət qurumu, 160 yerli media subyekti, 6 ictimai birlik, 9 prodakşn, radio, xarici media və media mərkəzləri iştirak edib.




Bundan başqa, 171 media subyektinin 347 nümayəndəsinin iştirakı ilə hərbi hissələrə 26 media-tur təşkil edilib. Burada müxtəlif mövzularda çəkilişlər təşkil olunub və hərbi qulluqçuların gündəlik fəaliyyəti jurnalistlərə təqdim edilib. Media nümayəndələri tərəfindən daxil olan 91 sorğu cavablandırılıb.

Ordu rəhbərliyinin ictimaiyyətə bilavasitə açıqlama verməsinin əhəmiyyəti qeyd edilərək, cari il ərzində müdafiə nazirinin 3 müsahibəsi və mətbuat konfransı təşkil edildiyi bildirilib.

Nazirliyin rəsmi sosial media hesablarında - instaqramda 1437, feysbukda 1478, X-də (tvitter) 1593, teleqramda 1567, yutubda isə 446 paylaşım edilib.

Görüş zamanı media subyektləri ilə qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi, səmərəliliyin artırılması məqsədilə perspektiv planlar müzakirə olunub. Hərbi və dövlət sirlərinin qorunması məqsədilə bu tip məlumatların yayılmasına yol verilməməsi, qarşısının alınması və birgə mübarizə aparılmasının zəruriliyi diqqətə çatdırılıb.

Tədbirin yekununda media nümayəndələrinin birgə əməkdaşlığın inkişafına dair təklifləri dinlənilib.

# Azərbaycan və Qazaxıstan hərbi qulluqçuları “Birləşik-2024” taktiki təlimində iştirak edəcəklər

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında imzalanmış birgə fəaliyyət planına əsasən, hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) dəniz piyadaları və xüsusi təyinatlılarının iştirakı ilə "Birləşik-2024" taktiki təlimi keçiriləcək.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimə hazırlıq çərçivəsində ölkəmizdə səfərdə olan qazaxıstanlı hərbi qulluqçular Azərbaycan HDQ-nin dəniz piyadaları və xüsusi təyinatlıları ilə birgə şərti terror qruplaşmaları tərəfindən zəbt edilmiş adanın azad edilməsi, dənizdə təhlükəsizlik əməliyyatları və infrastrukturun mühafizəsi, eləcə də digər tapşırıqları məşq edəcəklər.

Qeyd edək ki, cari ilin iyul ayında Qazaxıstan Respublikasında keçiriləcək taktiki təlimdə əsas diqqət qüvvələrin qarşılıqlı əlaqədə fəaliyyətləri zamanı döyüş uzlaşmasının təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılmasına yönəldiləcək.

# “Fransanın Azərbaycanla mədəni körpüləri yandırması ən son addımdır”

Fransanın Azərbaycanla mədəni körpüləri yandırması ən son addımdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Fransanın "Le Monde" qəzetinə müsahibəsində XIX əsr Azərbaycan şairəsi Xurşidbanu Natəvanın 2017-ci ildə fransız Evianında qoyulmuş abidəsinə qarşı ötən il dekabrın 30-da törədilən vandalizm aktını pisləyən Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bildirib.

Fransanın Azərbaycana münasibətdə təəccüb və dərin təəssüf hissi doğuran fəhmsiz davranışını xatırladan Prezidentin nümayəndəsi qeyd edib ki, "xarici ölkələrlə münasibətlərimizin tarixində ilk dəfə hər hansı bir ölkə ikitərəfli münasibətlərimizə əsaslanmayan və erməni diasporunun təzyiqi altında bu qədər çoxlu sayda qərəzli qətnamələr qəbul edir".

Paris ilə Bakı arasında münasibətlərdə davam edən diplomatik böhrana həsr olunmuş yazıda bu il yanvarın 18-də Milli Məclisin Fransa Senatının bir gün əvvəl qəbul etdiyi növbəti anti-Azərbaycan qətnaməsinə reaksiyası qismində Azərbaycan hökumətinə Fransa ilə bütün iqtisadi əlaqələri kəsmək barədə çağırışı da xatırladılır.

# Azad olunmuş ərazilərdə hərbi polisin xidməti fəaliyyəti yüksək səviyyədə təşkil edilib

Azərbaycan Ordusunun hərbi polis bölmələrinin azad edilmiş ərazilərdəki yaşayış məntəqələri və qoşunların dislokasiya yerlərində fəaliyyəti yüksək səviyyədə təşkil olunur.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi polis bölmələri tərəfindən nəzarət-buraxılış məntəqələrində, o cümlədən yeni qurulan stasionar və səyyar postlarda patrul xidməti həyata keçirilir, şəxsi heyətin yoxlanılması və qeydiyyatı, əraziyə daxil olan texnikanın uçotu aparılır, hərbi nəqliyyat vasitələrinin hərəkəti istiqamətləndirilir.

Həmçinin Azərbaycan Ordusu bölmələrinin dislokasiya yerlərinə gedən kolonların təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə müşayiəti həyata keçirilir, eləcə də günün nizam qaydalarına uyğun olaraq hərbi qulluqçular tərəfindən qoşun xidməti və sutka boyu döyüş növbətçiliyinin yerinə yetirilməsinə nəzarət edilir.



## Sıra hazırlığı

# Hərbi intizamın təməli sıra hazırlığıdır

*"N" hərbi hissəsinin sıra meydanında eşitdiyim ayaq səsləri mətin Azərbaycan əsgərinin qürurunun təcəssümüdür. Məşğələ rəhbərinin uca səslə verdiyi komandalar isə sanki qazanılan qələbənin carçısıdır. Gizir İnam Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun olaraq əsgərlərə sıra hərəkətlərini izah edirdi.*



Əsgərlərin "Düzül!", "Geyim formasını düzəlt!", "Farağat!", "Azad!" və digər komandaları dəqiq və vaxtında icra etmələri göz oxşayırdı. Hiss olunurdu ki, onlar keçirilən məşğələlərdə aşılanan bilikləri yaxşı mənimsəyiblər.

Məşğələ zamanı yaranan fasilədə gizir İnam Əliyev sıra hazırlığının hərbi xidmət üçün önəmliliyindən söz açdı. "Hər bir hərbi qulluqçu bilir ki, hərbi intizam sıradan başlayır. Bütün fəaliyyətlər sıra ilə tənzimlənir. Onlardan hərəkət zamanı ardıcıllıq və dəqiqlik tələb olunur. Bu vərdişlər sıra hazırlığı məşğələlərində formalaşır. Hər bir hərbi qulluqçu döyüş və sıra hazırlığı ilə formalaşır, təkmilləşir".

Gizir İnam Əliyev Aprel döyüşlərinin və İkinci Qarabağ müharibəsinin iştirakçısıdır. Qardaşı Pünhan Əliyev də 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində döyüşüb, mina qəlpələrindən yaralanıb.

Məşğələdə özünü fəal göstərən əsgər Murad Abbasquliyev bildirdi ki, bu cür məşğələlər əsgərləri daha da mətinləşdirir. "Hərbi xidmətə başladığım gündən sıranın müqəddəs olduğunu dərk etdim. Sıra hazırlığı fərdi və komanda şəklində keçirilir. Sıra hazırlığı bir çox müsbət keyfiyyətləri aşılayır".

Ramazan Məmmədov əsgər yoldaşının sözlərinə qüvvət verir: Sıra hazırlığında əldə olunan yüksək göstəricilər bütün hərbi xidmətin gedişatında vacib rol oynayır. Orta məktəbdə tədris olunan "Gənclərin çağırışaqədərki hazırlığı" dərslərində bizə sıranın əsaslarını, sıra hazırlığının ilkin vərdişlərini öyrədiblər. Hər bir gənc kimi, mən də hərbi xidmətə gedəcəyim günü səbirsizliklə gözləyirdim. Digər dərslərlə yanaşı, bu fənnə də böyük məsuliyyətlə yanaşırdım. Müəllimimiz ehtiyatda olan mayor Müşfiq Məmmədov mənə və digər sinif yoldaşlarıma hərbi vərdişləri peşəkarlıqla aşılayır, bizdə hərb sənətinə maraq yaradırdı. İndi hərbi xidmətimin çox hissəsi geridə qalıb, sıra vərdişlərinin nə qədər önəmli olduğunu mən də daha dərindən anlamışam.

Əsgərlər Şah Yarəhmədov və Elariz Nuriyev sıra məşğələlərinin hərbi xidmət üçün mühüm rol oynadığını vurğuladılar. "Hərbi hissədə keçirilən bütün məşğələlər bölmələrin yüksək döyüş hazırlığının ayrılmaz hissəsidir. Atəş və fiziki hazırlıqla yanaşı, sıra hazırlığı məşğələləri də belədir. Bacarıqlı komandirlərimizin rəhbərliyi ilə hər birimiz qarşıya qoyulan tapşırıqların öhdəsindən gələn əsgər kimi formalaşırıq", - dedilər...

Əsgərlərin sıra hazırlığı məşğələsinə marağını və məsuliyyətini hərbi xidmətə maraq və məsuliyyət bildim...

Məşğələ rəhbəri və şəxsi heyətlə söhbətimdən sonsuz dərəcədə xoş ayrıldım. Bir daha onun şahidi oldum ki, Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçu üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməklə fəxr duyur.

Şəxsi heyətə gələcək xidmətlərində uğurlar diləyərək, onlarla sağollaşdım.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Odusu"**

## Əsgər dostluğu

# Əsgər dostluğu müqayisəolunmaz məfhumdur

İnsan ömrü müddətində hər zaman dosta ehtiyac duyur. Belə ki, kiçik yaşlarından oyun yoldaşları, bağça, məktəb, iş yoldaşları insan həyatının ayrılmaz bir hissəsi olsa da, dostluqlar içində ən müqəddəsi, etibarlısı və möhkəmi əsgər dostluğudur. Çünki onları vahid amal birləşdirir - Ana Vətəni qorumaq. Onların hər biri ayrı-ayrı evlərdən, fərqli ailələrdən xidmətə gəlsələr də, xidməti dövründə bir olub Vətənə övladlıq borcunu ödəyirlər. Beləliklə, bu məqalədə bir il və yaxud ilyarım müddəti əhatə edən vaxt kəsiyində gündəlik və xidməti fəaliyyətini, müqəddəs missiyasını çiyin-çiyinə təşkil edən əsgər dostluqlarından danışacağıq.



Məlumdur ki, hərbi xidmət əsl həyat məktəbidir. Və bu məktəb Vətən müdafiəçiləri yetişdirib, yetişdirir və yetişdirəcək. O Vətən müdafiəçiləri ki, döyüş meydanında əsl dostluq, qardaşlıq və layiqli vətəndaşlıq nümunələri sərgiləməyi bacarıblar. Əsgər dostluğu bizim ordumuzun gücünə güc qatan amillərdəndir. Əsgərlərimizin dostluğunu, silahdaşlığını, qardaşlığını dərindən anlamaq üçün yaxın tarixə nəzər salmaq kifayətdir. Öz yaralı dostunu uzaq məsafəyə çiyinlərində daşıyan, şəhid dostunun qisasını özünə ən ali vəzifə bilən, şəhid ailələrinə layiqli mənəvi övlad olmağı bacaran, xidmət dostlarını qorumaq üçün açılan qumbaranın üzərinə tərəddüd etmədən atılan, çörəyini və suyunu silahdaşı ilə birgə bölən və daha çox başqa nümunələrimiz var. "N" hərbi hissəsində komandirlərin bizə nümunəvi əsgər və əsl dost olaraq göstərdiyi əsgərlər Rəvan Qasımov və Ramazan Mamedov ilə bu mövzu barədə həmsöhbət olduq.

"Yaxşı dosta hər zaman ehtiyac var, hərbi xidmət dövründə xüsusilə", - deyə söhbətə başlayan əsgər Ramazan Mamedov davam etdi. "Dostluq geniş məfhumdur. İnsanın qaranlığını aydınladan işıq, isti havada canını sərinlədən su, soyuq havada canını isidən yeməyə ehtiyacı olduğu kimi, yaxşı və yaman gününə, sevincinə və dərdinə şərik olan dosta ehtiyacı var. Əsgər dostluğundan danışsaq mütləq qeyd etməliyəm ki, xidmət müddətində sənin qazandığın dostlar ömür xəzinəndir. Ömrümün müəyyən və mühüm hissəsini əhatə edən hərbi xidmətim boyunca qazandıqlarımı heç nə ilə müqayisə edə bilmərəm, ələlxüsus da əsgər dostlarımı. Çünki əsgər dostluğu müqayisəolunmaz məfhumdur. Əsgər yoldaşın sənin silah yoldaşın, ən arxayın olduğun şəxsdir. Sən ona, o da sənə etibar etməli, sadiq olmalıdır. Əsgər dostum Rəvan Qasımovla burada tanış olmuşam. Zamanla bir-birimizlə möhkəm dostluq bağı qurmağı bacarmışıq. Və inanıram ki, bu dostluq daimi və əbədi olacaq".

Əsgər Rəvan Qasımov dostunun fikirlərinə öz əlavələrini etdi. "Böyüklərim hər zaman deyirdilər ki, insan olaraq həyatdakı ən böyük mənəvi qazancımız qurduğumuz əsl dostluqlardır. Bağça, məktəb, məhlədən dostlarım var. Birlikdə gəzib, birlikdə əylənmişik. Lakin gənc yaşlarında qurulan dostluqlar təcrübə azlığından zaman keçdikcə ələnə bilir. Yalnız əsgər dostluğundan başqa. Uşaqlıqda eşitdiyim "əsgər dostluğu dostluqların ən möhkəmidir" sözünün mahiyyətini hərbi xidmətdə daha dərindən anladım. Çünki hərbi xidmətdə qazandığın dostla çiyin-çiyinə verib, Ana Vətənə xidmət edirsən. Hərbi xidmətim mənə qazandırdıqları içində dostluqlarımı xüsusi qeyd edərdim. Şübhəsiz ki, Vətəninə sadiq olan biri dostuna da sadiq olar. Ana Vətən məhəbbəti bizim dostluğumuzu qardaşlıq olaraq da simvolikləşdirir. Fərqli ailələrdən, şəhərlərdən gəlsək də, hər birimizi bir amal birləşdirir - Ana Vətənə övladlıq borcunu layiqincə ödəmək. Xidmətdən sonra da ən ümdə vəzifəm Vətənə müqəddəs borcumu ödəyərkən qazandığım dostluq və qardaşlıqları bundan sonrakı ömür müddətimdə də layiqincə yaşatmaqdır".

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ-dan açıqlama: Türkiyəyə F-16-ların satışına dəstəyimiz davam edir



Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi ABŞ administrasiyasının Türkiyəyə F-16 döyüş təyyarələrinin satışına dəstəyini davam etdirdiyini açıqlayıb.

Kirbi gündəlik mətbuat brifinqində Türkiyəyə F-16 satışını qiymətləndirib.

"Vəzifəyə gəldiyimiz gündən bu mövzuda ardıcıl siyasi mövqeyimiz var. Əlavə F-16-ların satışına və modernləşdirilməsinə dəstək verməyə davam edirik", - deyə o bildirib.

Con Kirbi F-16-ların satışı ilə bağlı Konqresə rəsmi bildirişin nə vaxt göndəriləcəyi və satış cədvəli ilə bağlı dəqiq bir tarix deyə bilməyəcəyini söyləyib.

## Pakistan ordusu yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib



Pakistan Silahlı Qüvvələri fövqəladə döyüş hazırlığı vəziyyətinə gətirilib və İranın istənilən "avantürasına" qətiyyətlə cavab verəcək.

Reuters agentliyi bu barədə Pakistanın təhlükəsizlik qüvvələrindəki mənbəyinə istinadla məlumat yayıb.

Bir müddət öncə Pakistan Xarici İşlər Nazirliyi antiterror əməliyyatının keçirildiyini və əməliyyat zamanı İranın Sistan və Bəlucistan əyalətində terrorçuların sığınacaqlarına zərbələr endirildiyini elan edib.

Regionun hakimiyyət orqanlarının məlumatına görə, Pakistan ordusunun zərbələri nəticəsində doqquz nəfər, o cümlədən üç qadın və dörd uşaq həlak olub.

Qeyd edək ki, bundan öncə İran Pakistan ərazisinə raket zərbəsi endirmişdi.

## NATO-nun Baş Qərargah rəisləri Brüsseldə toplaşıb



NATO-nun Baş Qərargah rəisləri Brüsseldə toplaşıb.

Toplantıda Türkiyəni Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak təmsil edir.

Toplantıda NATO-nun müdafiə qabiliyyətinin artırılması və müdafiə ilə bağlı planları müzakirə edilib. Həmçinin Rusiya-Ukrayna müharibəsindəki son vəziyyət və NATO-nun Ukraynaya dəstəyi də dəyərləndirilib. Fevralda keçiriləcək müdafiə nazirlərinin görüşündən əvvəl bu il keçiriləcək hərbi təlimlər də qərargah rəislərinin gündəliyində olub.

Toplantı çərçivəsində Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak ikitərəfli görüşlər keçirib.

## Terri Breton: Aİ-nin müdafiə potensialını artırmaq üçün 100 milyard avro lazımdır



Avropa İttifaqı müdafiə sənayesinin gücünü artırmalıdır və bunun üçün təxminən 100 milyard avro lazımdır.

Avropanın daxili bazar üzrə komissarı Terri Breton bu barədə "Public Senat" telekanalının efirində deyib.

"Müdafiə sənayesinin potensialını artırmaq üçün 100 milyard avroya ehtiyac var. Avropa İttifaqına üzv dövlətlərin razılaşacağı təqdirdə həmin vəsaiti tapa bilərik", - deyə Terri Breton bildirib. Lakin o, Brüsselin bunun üçün hansı tədbirlər görməli olduğu barədə açıqlama verməyib.

**AZƏRTAC-ın materialları əsasında**

## Məişət

# Düzgün qidalanma sağlamlığın əsas şərtlərindən biridir



Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə inkişafın yeni mərhələsinə qədəm qoyan rəşadətli Azərbaycan Ordusu regionun ən güclüsünə və xalqın güvənc yerinə çevrilib. Dövlət başçısının ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi siyasətin uğurla həyata keçirilməsi ordumuzun gücünü gündən-günə artırır. Vətən müharibəsi və ordumuzun həyata keçirdiyi digər döyüş əməliyyatları bunun bariz nümunəsidir. Əlbəttə, bu qələbəni bizlərə yaşadan məğrur əsgərlərimizdir. Məhz onların şücaəti və igidliyi sayəsində torpaqlarımız azad edildi və şəhidlərimizin qisası alındı.

Dövlət rəhbərliyinin orduya göstərdiyi diqqət və qayğı nəticəsində şəxsi heyətin sosial-məişət şəraiti də yaxşılaşdırılıb. Müasir standartlara cavab verən və son model avadanlıqlarla təchiz olunan yataqxanalar, yeməkxanalar, idman şəhərcikləri, məişət və ideoloji otaqlar Vətən müdafiəçilərinin istifadəsinə verilib. "N" hərbi hissəsinin əsgər yeməkxanasında dediklərimizin şahidi olduq. Ətraf mühitin səliqə-sahmanı, aşpazların xüsusi geyim formasında olmaları və ana nəvazişi ilə bişirilən xörəklərin təravəti könül oxşayırdı. Burada ilk həmsöhbətim yeməkxana növbətçisi baş gizir Beyrək Həsənov oldu. O, günün menyusu barədə danışaraq dedi ki, hər günün ayrı-ayrı menyusu olduğu kimi bu günün də ayrıca menyusu vardır. Menyu küftəbozbaş, ət kotleti, verməşil süzməsi və sous, kompot, alma, çörək və vitamindən ibarətdir. Xüsusilə vurğulamaq istərdim ki, xörəklər hazır olduqdan sonra ilk öncə bir nümunəsi növbətçi həkim tərəfindən yoxlanılır. Hər şey qaydasında olduğu halda şəxsi heyətə paylanılır.

Baş aşpaz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qullquçusu baş əsgər Ramin Qurbanov aşpazlıq haqqında fikirlərini bizimlə bölüşdü. Dedi ki, aşpaz ilk öncə mətbəxdə sanitariya qaydalarına ciddi şəkildə riayət etməlidir. Çünki təmizlik öndə dayanan məsələdir. Buna görə də yeməkxanamız vaxtaşırı təmizlənir. Daha sonra isə yaxşı aşpaz təlabkar, səbirli, yaradıcı, dadlı xörək bişirmək kimi xüsusiyyətlərə sahib olmalıdır. Beləliklə, biz də bütün bu istedadımızı Vətən müdafiəçilərinə bəxş edirik. Hər zaman çalışırıq və çalışacağıq ki, hazırladığımız xörəklər onların ürəyincə olsun.

Aşpaz Xaləsər Şərifova hərbi hissədə hazırlanan bütün yeməklərin milli mətbəximizdən olduğunu dedi. "Səhər, nahar və şam yeməkləri ayrı-ayrı menyulara uyğun olaraq hazırlanır. Qida rasionuna süd, bal, yağ, cem, ət, kartof, düyü, qarabaşaq, balıq, şirniyyat növləri, təbii meyvə şirələri və s. daxildir. Burada işlədiyim müddətdə hər zaman bişirdiyim xörəklərlə əsgərlərimizi sevindirməyə çalışmışam. Çünki ilk öncə onlar Ana Vətənimizin və xalqımızın müdafiəsində dayanırlar.

Vətən müharibəsi ilə bütün dünya Azərbaycan əsgərinin gücünü, qüvvətini, hünərini və şücaətini bir daha gördü. İgid döyüşçülərimizin qəhrəmanlığı düşmənlərimiz üçün göz dağına çevrildi. Məhz bunların nəticəsidir ki, doğma yurdum düşmən əsarətindən azad edildi. Ümid edirəm ki, üzərimə düşən məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gələrəm".

- Düzgün qidalanma sağlamlığın əsas şərtlərindən biridir. İlk öncə düzgün və balanslı qidalanma fiziki sağlamlıqla yanaşı, ruhi sağlamlıq üçün də böyük əhəmiyyət



kəsb edir. Xəstəliklərin çox böyük əksəriyyəti düzgün qidalanmamaq nəticəsində orqanizmdə maddələr mübadiləsinin pozulması ilə əlaqədar olur. Məhz bu səbəbdən də bizim qarşımızda duran ən vacib məsələ - məğrur Vətən müdafiəçilərinin qidalanmasını hər zaman yüksək səviyyədə saxlamaqdır. Bunun üçün isə tam gücümüzlə səy göstərməliyik,- bu sözləri isə aşpaz Zülfüqar Bayramov dedi.

Nahar edən əsgər Emil Adilov regionun ən güclüsü və qalib Azərbaycan Ordusunun sıralarında xidmət etməkdən qürur duyduğunu dedi. "Xidmətə başladığımız ilk gündən etibarən bütün məişət şəraitimizin yüksək səviyyədə olduğunu şahidiyəm. Hər zaman isti suyumuz, asudə vaxtlarımız üçün çox gözəl ideoloji otağımız, gücümüzü artırmaq və həmişə gümrah qalmaq üçün hər bir avadanlıqla təchiz olunmuş idman şəhərciyimiz, paltarlarımızı ütüləmək üçün otağımız, bir sözlə desək, hər bir şəraitimiz çox yüksəkdir. Gördüyünüz kimi, hərbi hissəmizin yeməkxanasına isə söz ola bilməz. Təcrübəli aşpazlarımızın hazırladığı xörəkləri yediyimiz zaman, özümüzü evimizdə hiss edirik. Çünki analarımızın hazırladığı xörəklərin dadından qəti olaraq seçilmir. Bizlərə göstərilən bu cür diqqət və qayğının qarşısında isə hər birimizin borcu xidmətimizi düzgün təşkil edib, Vətən torpaqlarının keşiyində dayanmaqdır".

Əsgər Tofiq Əhmədov və digərləri də rəşadətli Azərbaycan Ordusunda xidmət etməyin qürurundan, məişət şəraitlərinin yüksək səviyyədə olmasından, diqqət və qayğı ilə əhatə olunmasından, komandirləri sayəsində hərbin sirlərinə dərindən malik olmasından və hərbin bütün müsbət xüsusiyyətlərindən söhbət etdilər.

**Kapitan**
**Orxan HÜSEYNLİ,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

## İdman

### Azərbaycan atıcıları Münxendə ənənəvi turnirə qatılacaqlar



Yanvarın 23-də Almaniyanın Münxen şəhərində atıcılıq üzrə 2024 H&N Kuboku start götürəcək.

Pnevmatik tapançadan və tüfəngdən 10 metr məsafəyə atəşaçma yarışlarında Azərbaycan 3 məşqçi və 17 idmançı ilə təmsil olunacaq.

Qeyd edək ki, ənənəvi turnir yanvarın 28-dək davam edəcək.

### Yüksək Liqa: “Azərreyl” inamlı qələbə ilə liderliyə yüksəlib



Kişi voleybolçular arasında Azərbaycan çempionatında IX turun ilk oyunu keçirilib.

Günün yeganə qarşılaşmasında MOİK və "Azərreyl" komandaları üz-üzə gəliblər.

Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində oynanılan matç "Azerreyl"in 0:3 (10:25, 11:25, 22:25) hesablı qələbəsi ilə yekunlaşıb.

Bu qələbədən sonra "dəmiryolçular" xallarının sayını 18-ə çatdıraraq turnir cədvəlində ilk sırada qərarlaşıb.

### Bu il Azərbaycanda keçiriləcək beynəlxalq turnirlərin siyahısı açıqlanıb

Bu il Azərbaycanda keçiriləcək beynəlxalq turnirlərin siyahısı açıqlanıb.

Ölkədə 51 beynəlxalq yarışın təşkili planlaşdırılır.

İlin ilk yarışı fevralın 7-11-də reallaşacaq badminton üzrə beynəlxalq turnirdir. Bunlardan başqa oktyabrın 17-20-də avarçəkmə üzrə "Mingəçevir reqatası", martın 7-10-da idman gimnastikası üzrə Dünya kuboku, martın 29-31-də bədii gimnastika üzrə Avropa Kuboku, aprelin 4-7-də güləş üzrə Avropa Olimpiya lisenziya turniri, mayın 1-10-da "Baku Open 2024" beynəlxalq şahmat turniri, mayın 5-8-də avarçəkmə üzrə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101?ci ildönümünə həsr olunmuş "Prezident Kuboku", sentyabrın 13-15-də isə Formula 1 Azərbaycan Qran-Prisi keçiriləcək.

### Azərbaycanın qadın güləşçiləri Macarıstanda təlim-məşq toplanışına başlayıb



Qadın güləşi üzrə Azərbaycan millisi növbəti təlim-məşq toplanışına start verib.

Yığma yanvarın 14-dən Macarıstanın Tata şəhərində intensiv hazırlıq prosesinə başlayıb. Təlim-məşq toplanışında Azərbaycanla yanaşı, Macarıstan, İtaliya, Yunanıstan, Litva, Norveç, İsveç, Almaniya, Polşa, Rumıniya, Çexiya, Qazaxıstan, Qırğızıstan, ABŞ, Kanada, Çin, Xorvatiya, Moldova, Çili, Meksika və Ekvadoru təmsil edən milli komandalar iştirak edir.

Yanvarın 27-dək davam edəcək hazırlıq prosesinə böyük məşqçi Toğrul Əsgərov və məşqçi Ağahüseyn Mustafayevin rəhbərliyi altında Mariya Stadnik (50 kiloqram), Əsmər Cankurtaran (53 kiloqram), Gültəkin Şirinova (55 kiloqram), Alyona Kolesnik, Ruzanna Məmmədova (hər ikisi 59 kiloqram), Birgül Soltanova və Günay Qurbanova (hər ikisi 62 kiloqram) cəlb olunub. Elnurə Məmmədova (53 kiloqram) zədələndiyi üçün hazırlıq prosesindən kənarda qalıb. Jalə Əliyeva (57 kiloqram) və Elis Manolova (68 kiloqram) isə baş məşqçi Semyon Şterevin nəzarətində Bolqarıstanın Belmeken şəhərində toplanış keçir.

Qeyd edək ki, təlim-məşq toplanışı qarşıdan gələn Avropa çempionatına və Avropa Olimpiya Təsnifat turnirinə hazırlıq xarakteri daşıyır.

**AZƏRTAC-ın materialları əsasında**



## Maraq dünyamız

# Cənub Qütbü

Cənub qütbündə yerləşən geniş Antarktika qitəsi praktiki olaraq boşdur.

Onun buzlu torpaqları planetdə insan yaşaması üçün ən uyğun olmayan torpaqlardır. Orada daima güclü, dağıdıcı küləklər, ən əsası isə sərt şaxtalar hökm sürür. Qışda temperatur -60°C-yə qədər düşür, ancaq hərdən -90°C-yə qədər düşə bilər. Yayda çox az hallarda 0°C-yə qalxa bilir. Qitənin bəzi yerləri 4200 metrə çatan qalın buz qatı ilə örtülüdür.

**"Azərbaycan Ordusu"**


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | Baş leytenant Elvin VƏTƏNDUST | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 18 Nüsxə 4646 |